## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# İran beynəlxalq məhkəmə qarşısında cavab verməlidir

### Səfirlikdə terror planını tam həyata keçirə bilməyən Yasin Hüseynzadə İranın xüsusi xidmət orqanlarını çıxılmaz vəziyyətə salıb

**Yanvarın 27-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə İranın xüsusi xidmət orqanları tərəfindən xaincəsinə silahlı basqın olub. Nəticədə səfirliyin mühafizə xidmətinin rəisi baş leytenant Orxan Əsgərov şəhid olub, səfirliyin əməkdaşı Mahir İmanov ağır yaralanıb, Vasif Tağıyev isə bədən xəsarəti alıb.**



İran rəsmilərinin soyuqqanlılıqla "məişət" zəminində baş verən hadisə kimi qələmə verməyə çalışdıqları olay birmənalı olaraq İranın xüsusi xidmət orqanları tərəfindən hazırlanaraq dövlətimizə qarşı həyata keçirilmiş terror aktıdır. Bununla İran beynəlxalq hüquqla qorunan ərazilərimizə silahlı basqın, təcavüz edib.

Bu məqamda bir məsələyə toxunmağı vacib sayırıq. Terroru həyata keçirənin kimliyinin məsələyə bir o qədər də dəxli yoxdur. Bu "islam fanatı" da, SEPAH əsgəri də, ETTELAAT zabiti də ola bilər. Əsas məsələ budur ki, terror hadisəsindən İranın bütün xüsusi xidmət orqanlarının xəbəri olub, sifariş olduqca yüksəkdən gəlib. Sadəcə olaraq, "kadr seçkisində" bir az səhvə yol verilib. Belə ki, səfirliyin əməkdaşı Vasif Tağıyevin qəhrəmanlığı İranın xüsusi xidmət orqanlarının planını pozub. Gəlin faktlara müraciət edək: səfirliyin müşahidə kameraları terrorun icraçısı Yasin Hüseynzadənin "işə başlamazdan" əvvəl bütün hərəkətlərini anbaan lentə alıb. Terrorçu səfirliyə hücum etməmişdən əvvəl yanvarın 27-si saat 08:05 və 08:24-də, aldığı tapşırığı qüsursuz həyata keçirmək üçün ciddi müşahidə aparır. İdarə etdiyi avtomobillə səfirliyin qarşısından iki dəfə keçir. Belə qənaət yaranır ki, səfirliyin əməkdaşlarının iş rejimi haqqında terrorçu əvvəlcədən tam məlumatlandırılıb. O da bu səfirliyə girmək üçün həmin əlverişli məqamı gözləyir.

Saat 08:32-də səfirliyin əməkdaşları diplomatik nümayəndəliyin inzibati binasının əsas giriş qapısından içəri daxil olduqdan dərhal sonra terrorçu idarə etdiyi nəqliyyat vasitəsini səfirliyin qarşısında park edilmiş nümayəndəliyin xidməti avtomobilinə çırpır. Bunun nəticəsində yaranmış səsə reaksiya verən səfirlik əməkdaşının qapını açmasından istifadə edən terrorçu avtomobilindən silahını götürüb giriş qapısındakı postda xidməti növbədə olan İran polisinin əməkdaşına əli ilə işarə verərək atəş aça-aça səfirliyin binasına daxil olur. Terrorçunu gözləyən İran xüsusi xidmət orqanlarının əməkdaşı soyuqqanlılıqla Yasin Hüseynzadənin hərəkətinə adekvat reaksiya vermədə, heç nə olmayıbmış kimi gedişatı izləyir.

Terrorçunun saat 08:34-də səfirliyə daxil olmasından cəmi 2 dəqiqə sonra İran polisinə məxsus nəqliyyat vasitəsi səfirliyin binasının qarşısına gəlib, giriş qapısının yaxınlığındakı postda dayanaraq "gözətçi" ilə bir neçə saniyəlik söhbətdən sonra ərazidən uzaqlaşır. Səfirliyə daxil olan, terroru icra edən şəxs 4 dəqiqə, yəni saat 08:36-dək səfirliyin inzibati binasında əməkdaşları hədəfə almaqla çoxsaylı atəş açır, nəticədə Orxan Əsgərov aldığı güllə yarasından hadisə yerindəcə həlak olur, digər əməkdaş Mahir İmanov sağ qol və sol ayaq nahiyəsindən ağır yaralanır. Səfirliyin başqa bir əməkdaşı Vasif Tağıyev isə terrorçunu zərərsizləşdirmək məqsədilə onun üzərinə hücum çəkir və əlbəyaxa olurlar. Səfirliyin əməkdaşı terrorçunu zərərsizləşdirərkən terroru törədən şəxs avtomatdan atəş açaraq V.Tağıyevi çiynindən yaralayır. Buna baxmayaraq, mübarizəni davam etdirən Vasif Tağıyev terrorçunun əlində olan avtomatın darağını çıxarmağa müvəffəq olur. Bu zaman terrorçu digər bir silahdan, gödəkçəsində saxladığı tapançadan istifadə etməyə başlayır. Necə deyərlər "B" planı işə düşür. Bu dəfə terrorçu Vasif Tağıyevi çənəsindən yaralayır (sonradan səfirliyin ərazisinə keçirilmiş baxış zamanı terrorçunun üzərindən düşmüş "Colt" markalı tapança aşkar edilərək götürülüb). Yaralı olmasına baxmayaraq, Vasif Tağıyev cinayətkarı sıxışdıraraq səfirliyin binasından çıxarmağa müvəffəq olur. Gəlin burada bir məqama diqqət yetirək.

Terroru həyata keçirən Yasin Hüseynzadənin səfirliyə zor gücü ilə daxil olmasına, binanın içərisində fasiləsiz atəş açmasına və Vasif Tağıyevin terrorçunu zərərsizləşdirmək üçün qapıda duran "İranın xüsusi xidmət orqanının əməkdaşını" köməyə çağırmasına baxmayaraq, "İranlı qapıçı" nəinki hadisəyə müdaxilə etmir, hətta postunu tərk edərək ərazidən uzaqlaşır.

Burada diqqət yetiriləsi daha bir məqam isə odur ki, terrorçu Yasin Hüseynzadə İranın xüsusi xidmət orqanlarının güvəndiyi, etibar etdiyi, təcrübəli adam təəssüratı yaradır. Yoxsa ona səfirliyin bütün əməkdaşlarını öldürüb, binanı yandırmaq kimi mühüm tapşırıq verilməzdi. Videogörüntülərdən də aydın görünür ki, səfirliyin binasından çıxarılmış terrorçu planı həyata keçirmək üçün səfirliyə "ehtiyatlı" gəlib. O, gödəkçəsinin cibində saxladığı ehtiyat avtomat darağını götürərək silahına yerləşdirdikdən sonra 2 dəfə kiməsə əli ilə işarə verərək, hədə-qorxu və təhqiramiz ifadələr işlədərək səfirliyin binasında diplomatların ailə üzvlərinin yaşadıqları mənzillərin pəncərələrinə davamlı atəş açır. Terrorçu bu müddət ərzində özü ilə gətirdiyi yanar maddə ilə səfirliyə məxsus nəqliyyat vasitəsini yandırmaq üçün avtomobilin təkərlərinə 2 dəfə atəş açır. Belə görünür ki, Yasin Hüseynzadə aldığı tapşırığa əsasən, terror aktını tam həyata keçirdikdən sonra səfirliyi yandırmalıymış. İran polisinin hadisə yerindən uzaqlaşması, kənarda verilən işarələr də terrorçuların qrup şəklində olduğunu təsdiq edir. Nəyin bahasına olursa-olsun, ona verilən vaxt ərzində o, planı icra etməli idi. Amma tapşırığı icra edə bilməyən Yasin Hüseynzadə səfirliyin giriş qapısını atəşə tutur, silahla qapını aça bilməyəcəyini hiss etdikdə avtomobilində saxladığı ağır zərbə aləti ilə qapını qırmağa çalışır. Səfirliyə ikinci dəfə soxulan terrorçu atəş aça-aça səfirliyin ikinci mərtəbəsinə qalxmağa cəhd edir. Bu zaman Vasif Tağıyev terrorçunun üzərinə yanğınsöndürən balon atmaqla onu başından zədələyir.

Küçəyə çıxdıqdan sonra terrorçu aralıda dayanan hansısa şəxslərə növbəti dəfə əli ilə işarə etməklə avtomatını yerə qoyur. Bu qədər prosesdən sonra da İranın polis əməkdaşları terrorçuya yaxınlaşıb heç bir tədbir görmür, onu tərk-silah etmirlər. Növbəti dəfə polisin hadisəyə müdaxilə etməməsindən istifadə edən terrorçu özü ilə gətirdiyi "Molotov kokteyli" tipli yandırıcı maddəni avtomobilindən götürərək səfirliyimizin qarşısında dayanan və nümayəndəliyimizə məxsus nəqliyyat vasitəsini yandırmağa cəhd göstərir. Həmin vaxt etiyatsızlıqdan özünü alışdıran terrorçuya polislər dərhal müdaxilə edib onun İranın xüsusi xidmət orqanları üçün qiymətli olan həyatını xilas etməyə çalışırlar.

Hadisə yerinə gələn polislər yenə də terrorçunu həbs etməyə tələsməyib, onunla söhbət edir, bəlkə də fərsizlikdə qınayırlar da. Terror hazırlayanlar narkən plana uyğun olaraq onun vaxtı, saatı, neçə dəqiqəyə həyata keçiriləcəyi qəti surətdə təsdiq olunur. Xüsusilə bu terror aktı səfirliyin binasında həyata keçirilirsə, yüz ölçüb, bir biçirlər. Terroru planlaşdıranlar dəqiq bilirlər ki, bu akt reallaşan zaman səfirliyin sağ qalan əməkdaşları, yüksəkrütbəli diplomatlar, hadisə barədə həmin an öz ölkələrinə və fəaliyyət göstərdikləri dövlətin yüksəkrütbəli dövlət məmurlarına məlumat verəcəklər. Ona görə də terror çoxseriyalı film kimi uzunmüddətli yox, qısa zamanda baş tutmalıdır. Əgər baş tutmursa, ya terrorçu özünü öldürməli, yaxud da təslim olmalıdır. İran polisləri ilə söhbətləşən Yasin Hüseynzadə bir müddət ərazidə dolaşaraq səfirliyin əməkdaşlarına "hamınızı öldürəcəm" deməklə təhdid və təhqir edir. Bundan sonra terrorçu sərbəst şəkildə yır-yığışa başlayır. Səfirliyin qapısını sındırmaq üçün gətirdiyi ağır zərbə alətini polisin gözü qarşısında yerdən götürüb avtomobilinin içərisinə qoyur. Terrorçunun İran polisindən həbs olunmasını təkidlə tələb edən, terror planının tam həyata keçirilməsinə mane olan Vasif Tağıyevi Y.Hüseynzadə təhqiramiz söyüşlərlə söyərək onun aşağı düşməsini istəyir. Eyni zamanda onun üzərinə hücum çəkir.

Yalnız bütün bunlardan sonra polislər terrorçunun qollarını qandallayıb onu avtomobilə əyləşdirərək ərazidən uzaqlaşdırıblar.

Daha maraqlı bir məqam da bu zaman baş verir. Üzündə maska olan naməlum şəxs terrorçunun avtomobilində olan naməlum əşyaları götürür və dərhal yoxa çıxır. Bir dövlətin ərazisinə hücum edən terrorçunun maşınına sərbəst şəkildə kim yaxınlaşa bilər? Nədən terrorçu həbs olunan kimi onun istifadə etdiyi avtomobil dərhal nəzarətə götürülməmişdi? Avtomobildən götürülən "əşyalar" nə idi?

Terrorun həyata keçirilməsi üçün İranda istirahət günü olan cümə gününün seçilməsi (terror aktına mane ola biləcək halları minimuma endirmək üçün), terrorçunun özü ilə hadisə yerinə böyük bir silah arsenalı, avtomat silah və güllələrlə dolu ehtiyat daraqlar, "Colt" tipli tapança, "Molotov kokteyli", ağır zərbə aləti və sair vasitələr gətirməsi, İran polisinin terror aktına müdaxilə etməməsi hadisənin planlı şəkildə hazırlanmasını təsdiq edən amillərdir. Terrorçu Yasin Hüseynzadənin planı axıra qədər yerinə yetirə bilməməsi terroru hazırlayan İranın xüsusi xidmət orqanlarını faktiki olaraq çıxılmaz duruma salıb. Odur ki, hadisənin məişət zəminində, yaxud da bir "dəlinin" törətdiyini deməklə, İran rəsmiləri terroru ört-basdır etməyə çalışırlar. İran anlamaq istəmir ki, yüz yalanla bir doğrunun borcunu ödəmək olmaz. Yanvarın 27-də İranın xüsusi xidmət orqanları tərəfindən səfirliyimizdə dövləti cinayət törədilib. Buna görə İran Azərbaycandan rəsmi şəkildə üzr istəməli, terroru planlaşdıranlar və həyata keçirənlər beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 9 fevral.- S.11.